

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 113 (21.265)

*10 iyun 2015-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, "Bakı-2015" Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri iyunun 9-da Atletlər Kəndində Birinci Avropa Oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyəti ilə görüşüblər.

Gənclər və İdman naziri Azad Rəhimov dövlətimizin başçısına Atletlər Kəndinin VİP qonaqların qəbul zonası barədə məlumat verdi. Binada yaradılan istirahət otağı, protokol zalı, qonaq vəsiqəsini gözləmə ərazisi və digər otaqlar müasir səviyyədədir. Burada yüksək səviyyədə fəaliyyət göstərmək üçün bütün imkanlar yaradılıb.

Sonra Prezident İlham Əliyev Birinci Avropa Oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyəti ilə görüşdü.

Dövlətimizin başçısı, xanımı və ailə üzvləri Birinci Avropa Oyunlarında Azərbaycanı ayrı-ayrı idman növlərində təmsil edəcək komandalarla xatirə şəkilləri çəkdirdilər.

Birinci Avropa Oyunlarında iştirak edəcək Azərbaycan komandalarının üzvləri dövlətimizin başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri ilə "Selfie" və fotoşəkillər çəkdirdilər.



## "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 28 iyun tarixli 20-IV FR nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 28 iyun tarixli 20-IV FR nömrəli Fərmanında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.3-cü bənddə nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.4-cü bənd əlavə edilsin:

"1.4. Naxçıvan Muxtar Respublikasının Tibbi-Sosial Ekspert komissiyasının bazasında Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti.";

1.2. aşağıdakı məzmunda 6-1-ci hissə əlavə edilsin:

"6-1. "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur – Əlavə VI).";

1.3. 7-ci hissədə "25" rəqəmləri "26" rəqəmləri ilə, "36" rəqəmləri "34" rəqəmləri ilə, "35" rəqəmləri "34" rəqəmləri ilə, "215" rəqəmləri "203" rəqəmləri ilə əvəz edilsin, "müəyyən edilsin" sözlərindən əvvəl ", Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin aparatının işçilərinin say həddi 12 ştat vahidi" sözləri əlavə edilsin.

2. Həmin Fərmanla təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturu"na aşağıdakı məzmunda 4-1-ci hissə əlavə edilsin:

"4-1. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti; ".

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 8 iyun 2015-ci il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 8 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir*

*Əlavə VI*

## Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti haqqında

### ƏSASNAMƏ

**1. Ümumi müddəalar**

1.1. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti (bundan sonra – Xidmət) tibbi sosial ekspertiza əsasında əlilliyin və 18 yaşınadək uşaqların sağlamlıq imkanlarının məhdudluğunun (bundan sonra – əlillik) qiymətləndirilməsi, əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud olan uşaqların (bundan sonra – əlilliyi olan şəxs) sosial müdafiə tədbirlərinə ehtiyaclarını müəyyən edən, onların reabilitasiyasını həyata keçirən icra hakimiyyəti orqanıdır.

1.2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra – Nazirlik) Əsasnaməsini və qərarlarını, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Xidmət bu Əsasnamədə nəzərdə tutulmuş vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, həmkarlar ittifaqları, habelə muxtar respublikada qeydiyyatdan keçən qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Xidmət müstəqil balansa, istifadəsində olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

1.5. Xidmətin saxlanma xərcləri və fəaliyyəti dövlət büdcəsinin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Xidmət Naxçıvan şəhərində yerləşir.

**2. Xidmətin fəaliyyət istiqamətləri**

2.1. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. əlilliyi olan şəxslər üçün cəmiyyət həyatının bütün sahələrində iştirak etmək imkanının, öz fərdi qabiliyyət və maraqlarına müvafiq surətdə dolğun həyat sürməsinə kömək göstərən lazımi şəraitin yaradılması, əlilliyi doğuran səbəblərin aradan qaldırılması, əlilliyi olan şəxslərin reabilitasiyası sahəsində dövlət siyasətinin hazırlanmasında iştirak edir və həmin siyasətin həyata keçirilməsini təmin edir;

2.1.2. tibbi-sosial ekspert komissiyaları vasitəsilə tibbi-sosial ekspertiza keçirərək, əlilliyin qiymətləndirilməsi əsasında şəxsin sosial müdafiə tədbirlərinə ehtiyaclarını müəyyən edir;

2.1.3. əlilliyi olan şəxslərin reabilitasiyası ilə bağlı müvafiq proqramların hazırlanmasını və həyata keçirilməsini təmin edir.

**3. Xidmətin vəzifələri**

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Xidmətin vəzifələri aşağıdakılardır:

3.1.1. tibbi-sosial ekspert komissiyalarının tibbi etika prinsipinə əsaslanan müayinələri aparmasını təmin etmək, müxtəlif maneələrlə qarşılıqlı təsir zamanı şəxsin digər şəxslərlə bərabər səviyyədə cəmiyyət həyatında tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntularının olmasını qiymətləndirmək;

3.1.2. əlilliyin və reabilitasiya imkanlarının qiymətləndirilməsi əsasında şəxsin əlillik dərəcəsi, onun müddəti, səbəbi və əlilliyin baş vermə vaxtı barədə tibbi-sosial ekspert komissiyaları tərəfindən qərar qəbul edilməsini təmin etmək;

3.1.3. tibbi-sosial ekspert komissiyaları tərəfindən əlilliyi müəyyən olunan şəxsin fərdi reabilitasiya proqramının tərtib olunmasına və icrasına nəzarət etmək;

3.1.4. əlilliyi olan şəxslərin sosial müdafiə tədbirlərinə (protez-ortopedik məmulatlarının, eşitmə aparatlarının, kreslo-veloarabalar və digər reabilitasiya vasitələrinin verilməsi, nəqliyyat və hərəkət vasitələri ilə təmin olunma, xüsusi təhsil alma, evdə sosial-məişət xidməti göstərilmə və sair) ehtiyacları barədə tibbi-sosial ekspert komissiyaları tərəfindən tibbi göstərişlər verilməsini təmin etmək;

3.1.5. istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində işçinin peşə əmək qabiliyyətini, sağlamlığı xəsarət yetirilmə nəticəsində və ya başqa şəkildə pozulmuş fiziki şəxsin əmək qabiliyyətinin itirilmə faizini, habelə istehsalatda bədbəxt hadisələr və peşə xəstəliyi ilə əlaqədar işçinin (xəsarət yetirilmə nəticəsində və ya başqa şəkildə sağlamlığı pozulmuş fiziki şəxsin) əlavə xərclərə (müalicəyə, əlavə qidalanmaya, dərman alınmasına, protezləşdirilməyə, başqasının qulluğuna, sanatoriya-kurort müalicəsinə, xüsusi nəqliyyat vasitəsinin verilməsinə və sair) ehtiyacı olub-olmadığını tibbi-sosial ekspert komissiyaları vasitəsilə müəyyən etmək;

3.1.6. əlilliyi olan şəxsin müayinə və müalicə məqsədləri ilə (tibbi-sosial ekspert komissiyalarının tərtib etdiyi fərdi reabilitasiya proqramları istisna olmaqla) səhiyyə və ya reabilitasiya müəssisəsinə göndərilməsi barədə qərar qəbul etmək;

3.1.7. əlilliyi olan şəxsin təkrar müayinəsi sənədlərlə təsdiq edilən üzrlü səbəbdən (stasionar müalicə, ezamiyyə, hərbi əməliyyatlar gedən bölgələrdə vəziyyət və sair) gecikdirildikdə, ötmüş müddətdə şəxsin əlilliyi barədə tibbi-sosial ekspert komissiyaları tərəfindən qərar qəbul edilməsini təmin etmək;

3.1.8. istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əlilliyi müəyyən edilmiş şəxslərin ölümünün qeyd edilən hadisələrlə əlaqəsinin tibbi-sosial ekspert komissiyaları tərəfindən müəyyənləşdirilməsini təmin etmək;

3.1.9. əlilliyi olan şəxslərin sosial adaptasiyası ilə bağlı tədbirlər həyata keçirmək;

3.1.10. əlilliyin yaranmasına, inkişafına və nəticəsinə təsir göstərən səbəbləri, şərait və amilləri öyrənmək və əlilliyin yayılması səbəblərini araşdırmaq;

3.1.11. əlilliyi olan şəxslərə tibbi-sosial ekspert komissiyalarının və bərpa mərkəzlərinin psixoloji yardım göstərməsini təmin etmək;

3.1.12. işləyən əlilliyi olan şəxslərin səhhətinin peşə vəzifələrini yerinə yetirməsinə mane olduğu, yaxud başqa şəxslərin səhhəti və əmək təhlükəsizliyi üçün təhlükə törətdiyi hallar barədə tibbi-sosial ekspert komissiyaları tərəfindən rəy verilməsini təmin etmək;

3.1.13. əlilliyi olan şəxslər, əlilliyin vəziyyəti və dinamikası, əlillərin sosial müdafiə, o cümlədən reabilitasiya tədbirlərinə olan ehtiyacı, görülən tədbirlərin nəticəsi və səmərəliliyi barədə sistemləşdirilmiş məlumat bankı yaratmaq;

3.1.14. əlilliyin qarşısının alınması və əlillərin bərpası məqsədi ilə Nazirliyə təkliflər vermək;

*Ardı 2-ci səhifədə*

3.1.15. əlil hesab edilmiş çağırışyaşlı şəxslər haqqında Naxçıvan Muxtar Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə və şöbələrinə məlumat vermək;

3.1.16. tibbi-sosial ekspert komissiyaları tərəfindən yetkinlik yaşına çatmış sağlamlıq imkanları məhdud şəxslərdə fiziki çatışmazlıqların, əqli və (və ya) psixi ləngimələrin diaqnostikasının aparılmasını, bunun əsasında onların xüsusi təhsilə ehtiyacının müəyyənləşdirilməsini təşkil etmək;

3.1.17. tibbi-sosial ekspert komissiyaları və protez-ortopedik bərpa müəssisələri tərəfindən əlilliyi olan şəxslərin protez-ortopediya məmulatları və reabilitasiya vasitələri ilə təmin olunmasını təşkil etmək;

3.1.18. protez-ortopedik bərpa müəssisələri tərəfindən protez-ortopedik məmulatların ayrı-ayrı növlərinin və digər reabilitasiya vasitələrinin hazırlanmasını, protez ortopedik məhsulların istehsalında müasir texnologiyaların tətbiqini təmin etmək;

3.1.19. protez-ortopedik məmulatların tibbi-texniki sınaqlarını keçirmək və yaxud bu məqsədlə mütəxəssislər dəvət etmək;

3.1.20. əlilliyi olan şəxslərin tibbi, sosial, peşə reabilitasiyasını və istehsalata adaptasiyasını həyata keçirmək;

3.1.21. əlilliyi olan şəxslərin reabilitasiyası məqsədi ilə bədən tərbiyəsi, idman və digər sağlamlıq tədbirlərini həyata keçirmək;

3.1.22. əlilliyin qarşısının alınması və əlillərin bərpası ilə bağlı kadrların ixtisasının artırılması və kadr hazırlığının həyata keçirilməsi sahəsində tədbirlər görmək;

3.1.23. Xidmətin maddi-texniki bazasının möhkəmləndirilməsi, o cümlədən müasir informasiya texnologiyaları ilə təmin edilməsi barədə Nazirliyə təkliflər vermək;

3.1.24. vətəndaşların qəbulunu təşkil etmək, ərizə, təklif və şikayətlərə qanunvericiliklə müəyyən olunmuş qaydada və müddətdə baxılmasını təmin etmək;

3.1.25. əlilliyi olan şəxslərlə bağlı statistik hesabatları aidiyyəti üzrə müvafiq dövlət orqanlarına təqdim etmək;

3.1.26. bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, əlilliyi olan şəxslərin reabilitasiyası və sosial müdafiəsi sahəsində digər vəzifələri yerinə yetirmək.

**4. Xidmətin hüquqları**

4.1. Xidmətin öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.1.1. əlilliyin qarşısının alınması və əlillərin bərpası sahəsində normativ aktların təkmilləşdirilməsinə dair təkliflərini Nazirliyə təqdim etmək;

4.1.2. tibbi-sosial ekspert komissiyalarının qərarından narazı olan vətəndaşların müraciəti əsasında onları təkrar müayinə etmək, müayinənin nəticəsindən asılı olaraq qərar qəbul etmək, yaxud tibbi-sosial ekspert komissiyasının qərarını təsdiq və ya ləğv etmək;

4.1.3. tibbi-sosial ekspert komissiyalarının qərar qəbul etməkdə çətinlik çəkdiyi mürəkkəb ekspertiza hallarında tibbi-sosial ekspert komissiyalarına məsləhət vermək;

4.1.4. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.5. öz tabeliyində idarə və təşkilatların yaradılması, ləğvi və yenidən təşkili barədə Nazirliyə təkliflər vermək;

4.1.6. əlilliklə bağlı yerli və beynəlxalq tədbirlərdə Nazirliyi təmsil etmək;

4.1.7. bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətləri üzrə məhkəmədə iddiaçı və cavabdeh qismində çıxış etmək;

4.1.8. tibbi-sosial ekspertizanın keçirilməsi üzrə qabaqcıl beynəlxalq təcrübəni öyrənmək, ekspertləri və məsləhətçiləri öz fəaliyyətinə cəlb etmək;

4.1.9. əlilliyin qarşısının alınması və əlillərin bərpası sahəsində beynəlxalq təcrübəni öyrənmək, öz səlahiyyətləri daxilində təcrübə mübadiləsi aparmaq;

4.1.10. əlilliyi olan şəxslərin reabilitasiyası və sosial müdafiəsi sahəsində digər dövlət orqanları ilə əməkdaşlıq etmək;

4.1.11. Xidmətin fəaliyyəti istiqamətlərinə uyğun olaraq nəşr, reklam-informasiya işlərini həyata keçirmək;

4.1.12. əlilliyi olan şəxslərin reabilitasiyası və sosial müdafiəsi sahəsində digər hüquqları həyata keçirmək.

**5. Xidmətin fəaliyyətinin təşkili**

5.1. Xidmətin aparatı, tibbi-sosial ekspert komissiyaları və bərpa mərkəzləri Xidmətin sistemini təşkil edir.

5.2. Xidmətə Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Xidmətin rəisi rəhbərlik edir.

5.3. Xidmətin rəisi Xidmətə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və funksiyaların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.4. Xidmətin rəisinin Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini vardır.

5.5. Xidmətin aparatının inzibati vəzifə tutan işçiləri qanunvericiliyə müvafiq qaydada işə qəbul edilirlər.

5.6. Tibbi-sosial ekspert komissiyalarının və bərpa mərkəzlərinin işçiləri Xidmət rəisinin təqdimatı əsasında Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin əmri ilə vəzifəyə təyin və vəzifədən azad edilirlər.

5.7. Xidmətin rəisi:

5.7.1. Xidmətin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.7.2. tibbi-sosial ekspert komissiyalarının və bərpa mərkəzlərinin fəaliyyətini əlaqələndirir, onlara əməli-metodik kömək göstərilməsini təşkil edir;

5.7.3. işçilərin peşə hazırlığı və əlavə təhsili üçün zəruri tədbirlər görür;

5.7.4. Xidmətin aparatının yardımçı vəzifə tutan işçilərini işə qəbul edir;

5.7.5. müəyyən olunmuş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Xidmətin aparatının, tibbi-sosial ekspert komissiyalarının və bərpa mərkəzlərinin strukturunu, xərclər smetasını və ştat cədvəlini təsdiq üçün Nazirliyə təqdim edir;

5.7.6. Xidmətin aparatının struktur bölmələrinin əsasnamələrini təsdiq edir;

5.7.7. Xidmət üçün ayrılmış vəsaitlərin təyinatı üzrə xərclənməsini təmin edir;

5.7.8. Xidmətin rəisinin müavini və təsdiq edilmiş ştat cədvəlinə uyğun olaraq Xidmətin aparatının struktur bölmələrinin rəhbərləri arasında vəzifə bölgüsünü aparır;

5.7.9. Xidmətin aparatının inzibati vəzifə tutan işçiləri, tibbi-sosial ekspert komissiyalarının və bərpa mərkəzlərinin işçiləri barədə intizam tənbehi tədbirlərinin görülməsi üçün Nazirlik qarşısında məsələ qaldırır;

5.7.10. Xidmətin aparatının, tibbi-sosial ekspert komissiyalarının və bərpa mərkəzlərinin işçilərinin həvəsləndirilməsi və mükafatlandırılması barədə tədbirlərin həyata keçirilməsini təmin edir;

5.7.11. Xidmətin işçilərinə icrası məcburi olan əmrlər və göstərişlər verir;

5.7.12. dövlət və yerli özünüidarəetmə orqanları, həmkarlar ittifaqı və işəgötürənlər birlikləri ilə, habelə hüquqi və fiziki şəxslərlə münasibətlərdə Xidməti vəkalətnaməsiz təmsil edir;

5.7.13. Xidmətin strukturunun təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi barədə Nazirliyə təkliflər verir;

5.7.14. Xidmətin fəaliyyəti barədə Nazirliyə mütəmadi olaraq hesabat verir;

5.7.15. Xidmətin vəzifəli şəxslərinin qəbul etdikləri qərarlardan verilmiş şikayətlərə baxır və əsas olduqda, həmin qərarları dəyişdirmək və ya ləğv etmək barədə qərar qəbul edir;

5.7.16. dövlət büdcəsindən Xidmətə ayrılmış vəsaitin xərclənməsinə dair hesabatları Nazirliyə təqdim edir;

5.7.17. Xidmətin fəaliyyəti istiqamətləri üzrə digər səlahiyyətləri həyata keçirir.

# Heydər Əliyev lektoriyalarının növbəti məşğələləri keçirilib



Ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə gəldiyi 1993-cü il iyun ayının 15-i Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Həmin tarixdən etibarən dövlətçiliyimiz yox olmaq təhlükəsindən xilas oldu, ölkəmiz inkişaf, tərəqqi, yüksəliş yoluna qədəm qoydu.

Bu fikirlər Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində Heydər Əliyev lektoriyasının 15 İyun – Milli Qurtuluş Gününə həsr olunan 66-cı məşğələsində səsləndirilib.

Bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxışında bildirib ki, 1991-ci ildə öz dövlət müstəqilliyini elan edən Azərbaycan ağır problemlər burulğanına yuvarlanmışdı. O zaman ölkəyə başçılıq edən təsadüfi şəxslərin bacarıqsızlığı, səriştəsizliyi ağır nəticələrə gətirib çıxarmışdı. Artıq 1993-cü ilin yazında ölkə daxilində vəziyyət böhran həddinə çatmışdı. Azərbaycan torpaqlarının bir hissəsi ermənilər tərəfindən işğal olunmuş, yüz minlərlə yurddaşımız öz doğma ocaqlarından qaçqın, köçkün vəziyyətinə düşmüş, gənc müstəqil dövlətimiz dünyada təklənmişdi. Belə bir vaxtda xalq yeganə düzgün yolu seçdi – dünya şöhrətli siyasi xadim Heydər Əliyevi təkidlə ölkə rəhbərliyinə dəvət etdi.

“1993-cü il iyunun 9-da xalqın təkidli tələbi ilə görkəmli dövlət xadimi Heydər Əliyev gərgin situasiyada yaşayan Bakıya gəldi. On minlərlə insan Bakı hava limanına axışaraq öz müdrik xilaskarını qarşıladı. 1993-cü il iyunun 15-də xalqın qətiyyətli istəyi gerçəkləşdi: ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının Ali Sovetinə Sədr seçildi”, – deyən İsmayıl Hacıyev qeyd edib ki, 1993-cü il oktyabrın 3-də xalqın böyük dəstəyi ilə Prezident seçilən görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi on il müddətində neçə-neçə qərinəyə sığmayan son dərəcə böyük işlər gördü.

Vurğulanıb ki, ulu öndərin milli maraqlara əsaslanan çoxşaxəli siyasət strategiyası bu gün onun layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda ölkəmizin hərtərəfli və sürətli inkişafı, baş verən əsaslı dəyişikliklər, xarici siyasətimizdəki uğurlar, insanların rahatlığı naminə həyata keçirilən qlobal layihələr Azərbaycanın qüdrətli dövlət olduğunu təsdiq edir.

***Ulu öndər Heydər Əliyev 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtmaqla Azərbaycanı müstəqilliyini itirməkdən, vətəndaş müharibəsindən, parçalanmaqdan xilas edib.***



Bu fikirlər Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Heydər Əliyev Universitetinin 194-cü məşğələsində səsləndirilib.

15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş “Ümummilli lider Heydər Əliyev və Azərbaycanın qurtuluşu” mövzusunda keçirilən məşğələni universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açıb. O, Milli Qurtuluş Gününün tarixindən, ümummilli lider Heydər Əliyevin milli müstəqilliyin qazanılması və qorunub saxlanılmasında göstərdiyi əvəzsiz xidmətlərindən ətraflı söhbət açıb.

Qeyd olunub ki, məhv olmaq təhlükəsi ilə üz-üzə qalan Azərbaycan məhz ulu öndərin sayəsində bu bəlalardan xilas olub, dinamik inkişaf yoluna qədəm qoyaraq dünya dövlətləri sırasında layiqli yerini tutub. Ümummilli liderin müdrik siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Universitetin Azərbaycan tarixi kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev mövzu ilə bağlı məruzə edərək bildirib ki, ulu öndər Heydər Əliyev uzaqgörən siyasəti, liderlik qətiyyəti, beynəlxalq siyasi nüfuzu ilə Azərbaycan dövlətçiliyini qurtuluş və nicat yoluna çıxarıb.

Məruzəçi ötən əsrin 90-cı illərində baş verən ictimai-siyasi prosesləri şərh edərək vurğulayıb ki, Azərbaycan o dövrdə iqtisadi, siyasi, mədəni, hərbi böhran vəziyyətində idi. Lakin ümummilli liderin fəaliyyəti ilə ölkəmiz tezliklə siyasi xaos və parçalanmaqdan, yenidən müstəmləkəyə çevrilmək təhlükəsindən xilas oldu, hətta öz siyasi-iqtisadi strategiyasını müəyyənləşdirən güclü dövlətə çevrildi. Müasir Azərbaycanda, o cümlədən Naxçıvanda müxtəlif sahələrdə qazanılan mühüm uğurlar bunu bir daha təsdiq edir.

Məşğələ diskussiya şəraitində davam edib.

* * *

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində də “Ümummilli lider Heydər Əliyev və Azərbaycanın qurtuluşu” mövzusunda Heydər Əliyev lektoriyasının növbəti məşğələsi keçirilib.*

Məşğələni giriş sözü ilə Gənclər və İdman nazirinin müavini Məcid Seyidov açıb.

Sonra AMEA Naxçıvan Bölməsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev mövzu ilə bağlı məruzə edib.

Bildirilib ki, 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyevin ölkənin ali qanunvericilik orqanına sədr seçilməsi ilə hakimiyyətə qayıdışı xalqımızın şanlı tarixinə Milli Qurtuluş Günü kimi daxil olub. Əgər həmin ağır günlərdə ümummilli lider Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycanın müstəqilliyinin itirilməsi qaçılmaz olardı.

Musa Quliyev deyib ki, ulu öndərin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı, sabitlik və əmin-amanlıq yaratdı. Görkəmli dövlət xadiminin Azərbaycana rəhbərlik etdiyi dövrdə milli-mənəvi dəyərlərimiz bərpa edildi. Onun apardığı uğurlu daxili və xarici siyasət sayəsində ölkəmiz sivil demokratik inkişaf yolu ilə inamla irəliləyərək böyük nailiyyətlər qazandı. Ulu öndərimizin tarixi xidmətləri sayəsində Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz xarakter aldı. Xalqımızın böyük oğlu Heydər Əliyev Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, Azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyuldu.



Bildirildi ki, qısa müddətdə dövlətçiliyin təməl prinsipləri yaradılaraq möhkəmləndirildi, müstəqil Azərbaycan dünya birliyinin tamhüquqlu üzvünə çevrildi. Ulu öndərin işləyib hazırladığı müstəqil dövlət quruculuğu konsepsiyası müasir Azərbaycan dövlətinin uğurlarının bünövrəsində dayanaraq gələcək inkişafın, misli görünməmiş uğurların əsasını qoydu.

Müasir Azərbaycan tarixinin bir çox parlaq səhifələrinin ulu öndər Heydər Əliyevin adı ilə, onun dövlətçilik fəaliyyəti ilə bağlı olduğunu diqqətə çatdıran Musa Quliyev qeyd etdi ki, bu dahi şəxsiyyətin dövlətçiliyimizin qüdrətlənməsi, Azərbaycanda demokratiyanın inkişafı, ölkəmizin beynəlxalq nüfuzunun möhkəmləndirilməsi ilə bağlı xidmətləri ölçüyəgəlməzdir. Fərəhli haldır ki, ulu öndərin rəhbərliyi ilə ölkəmizin qazandığı bütün uğurlar Prezident İlham Əliyevin sayəsində daha da zənginləşdirilir. Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsinin, bu siyasətin müasir dövrün çağırışlarına cavab olaraq Prezident İlham Əiyev tərəfindən yeni mərhələyə qaldırılmasının nəticəsidir ki, Azərbaycan regionun əsas söz sahibi olan, dinamik inkişaf edən ölkəsidir.

**Xəbərlər şöbəsi**

## Şərqi Azərbaycan Vilayəti İranın inkişaf edən bölgəsidir

İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti ölkənin şimal-qərbində yerləşir. Əlverişli coğrafi mövqeyi, gözəl təbiəti, qədim tarixi və zəngin mədəni irsi Şərqi Azərbaycan Vilayətinin əsas səciyyəvi cəhətlərindəndir. Son illər sənaye və aqrar sahənin dinamik inkişafı, xüsusilə xarici ticarət əlaqələrinin genişlənməsi buranı İranın ən əhəmiyyətli və inkişaf etmiş bölgələrindən birinə çevirmişdir.

45 min 491 kvadratkilometr ərazisi olan bu vilayətdə 3 milyon 807 min nəfər əhali yaşayır. Ərazisinə görə ölkənin 13-cü böyük vilayəti olan Şərqi Azərbaycanda 20 əyalət, 24 rayon, 62 şəhər, 142 kənd və 3079 kiçik yaşayış məntəqəsi vardır. Bölgədə sənayenin sürətli inkişafının nəticəsidir ki, hazırda əhalinin 40,8 faizi bu sahədə, 20,5 faizi kənd təsərrüfatı və 38,7 faizi isə xidmət sahəsində fəaliyyət göstərir.

Vilayətin mərkəzi olan Təbriz tarixən elm və mədəniyyət şəhəri olmuşdur. Məhəmmədhüseyn Şəhriyar, Şəms Təbrizi, Qətran Təbrizi və digər tanınmış ədiblər bu torpağın yetirmələridir. Bu ədiblər fars dili ilə yanaşı, doğma Azərbaycan dilində də dəyərli əsərlər yaratmış, şeiriyyətin və ədəbiyyatın inkişafına öz töhfələrini vermişlər. Bu gün Təbriz şəhərinin əhalisi Azərbaycan dilində danışır.

Şərqi Azərbaycan Vilayətində, xüsusilə də mərkəz Təbriz şəhərində elmin və təhsilin inkişafına xüsusi diqqət yetirilir. İstər tarixən mövcud olmuş təhsil ənənələri, istərsə də yaradılan müasir şərait burada ali təhsil ocaqlarının inkişafı üçün geniş imkanlar açmışdır. Təbriz Universiteti, Təbriz Tibb Elmləri Universiteti və digər təhsil müəssisələri böyük elmi potensiala malikdir. Təkcə bir faktı qeyd etmək yerinə düşər ki, 2013-2014-cü tədris ilində Şərqi Azərbaycan Vilayətində 215 min 542 nəfər tələbə 139 ali təhsil müəssisəsində təhsil almışdır ki, onların da 52,7 faizi dövlət təhsil müəssisələrinin payına düşür.

İran İslam Respublikasının əsas iqtisadi mərkəzlərindən olan Şərqi Azərbaycan Vilayətinin inkişafını şərtləndirən amillərdən biri də onun tranzit mövqeyə və yüksək iqtisadi potensiala malik olmasıdır. Burada 4 gömrük məntəqəsi – Culfa, Təbriz, Səhəlan və Marağa, eləcə də böyük tutuma malik olan anbarlar fəaliyyət göstərir. Bu da vilayətin strateji əhəmiyyətini xeyli artırmış, onu beynəlxalq ticarət mərkəzinə çevirmişdir. Bu mənada ərazidə mövcud olan Araz Azad Ticarət və Sənaye Zonasını xüsusilə qeyd etmək lazımdır.

51 min hektar ərazisi olan Ticarət və Sənaye Zonası Təbrizdən 137, Tehrandan isə 761 kilometrlik məsafədə yerləşir. Mühüm coğrafi şəraitə malik yük dəhlizi üzərində yerləşməsi, istehsal olunan məhsulların ixrac imkanları, uzunmüddətli vergidən azadolma, sənaye maşınlarının və xammalın idxalında gömrük rüsumlarının alınmaması daxili və xarici investorların bu zonaya axınının əsas səbəblərindəndir. Sənaye, xidmət, anbarçılıq, kənd təsərrüfatı, ticarət, avtomobil xidmətləri sahələrində 310 şirkətin fəaliyyət göstərdiyi Araz Azad Ticarət və Sənaye Zonasını sahibkarlar şəhəri də adlandırmaq olar. Burada 96 bina sahibkarların ixtiyarına verilmişdir. Hazırda zonada Türkiyə, Cənubi Koreya, Hindistan, Çin və Qazaxıstandan olan 22 xarici şirkət fəaliyyət göstərir və 100-dən artıq müxtəlif xarici ölkə vətəndaşı çalışır.

Araz Azad Ticarət və Sənaye Zonasında aqrar sektorun inkişafı üçün də geniş imkanlar mövcuddur. Ərazidə 22 min 590 hektar əkinəyararlı torpaq sahəsi mövcuddur və bu torpaqlardan səmərəli istifadə olunur. Hazırda 190 hektar sahədə istixanalar fəaliyyət göstərir. Digər 22 min 400 hektarı isə müxtəlif meyvə bağları və əkin sahələridir. Bu bağlar və əkin sahələri, əsasən, dövlətin və özəl bölmənin investisiyası ilə ərsəyə gəlmişdir. Əlavə olaraq, illik gücü 148 min ton benzin, ağ neft, dizel və mazut istehsalı olan neftayırma zavodu da tikilib istifadəyə verilmişdir. Burada elektrik enerjisi istehsalı üçün də əlverişli şərait vardır. Hazırda xarici investisiya hesabına 500 meqavat gücündə elektrik stansiyasının tikilməsi gələcəkdə enerji ixracatının həcminin artırılmasına öz töhfəsini verəcəkdir.

Araz Azad Ticarət və Sənaye Zonasında təhsilin inkişafına da böyük önəm verilir. Bu gün zonada İranın 6 böyük ali təhsil müəssisəsinin nümayəndəlik və şöbələri fəaliyyət göstərir. Tehran, Təbriz, Təbriz Tibb Elmləri, Azad və Pəyame Nur universitetlərinin nümayəndəlikləri burada müxtəlif sahələrdə tələbə qəbulu və tədrisi ilə məşğuldurlar. Hazırda 4 min tələbə ali təhsilin müxtəlif pillələrində təhsillərini davam etdirir.

Şərqi Azərbaycan Vilayətində iqtisadiyyatın bütün sahələrinin inkişafı, xüsusilə də istehsal müəssisələrinin fəaliyyətinin stimullaşdırılması, yeni müəssisələrin yaradılması diqqət mərkəzindədir. Burada sənayenin və kənd təsərrüfatının müxtəlif sahələri sürətlə inkişaf etdirilir. Kənd təsərrüfatının inkişafında başlıca yeri meyvəçilik və tərəvəzçilik tutur. Şərqi Azərbaycan Vilayətinin kənd təsərrüfatı imkanları onun ölkənin "taxıl anbarı" kimi tanınmasına səbəb olmuşdur. Vilayətdə taxıl bitkiləri ilə yanaşı, paxlalı bitkilər, kartof, soğan, qarğıdalı və digər məhsullar istehsal olunur, alma, armud, şaftalı, ərik və digər meyvələr yetişdirilir. Ərazinin dağlıq bölgədə yerləşməsi arıçılığın da inkişafına stimul vermişdir. Həmçinin Şərqi Azərbaycan Vilayətində quşçuluq və balıqçılıq da inkişaf etdirilir.

Bütün bunlara baxmayaraq, bölgə iqtisadiyyatında başlıca yeri sənaye tutur. İran İslam Respublikasının əsas sənaye bölgələrindən biri hesab olunan vilayətdə maşınqayırma sənayesi, xüsusən də kənd təsərrüfatı texnikaları istehsalı inkişaf etmişdir. Burada traktor, avtomobil, dərman, kafel-seramika, petrokimya zavodları və 5715 kiçik sənaye müəssisəsi fəaliyyət göstərir. 35 sənaye şəhərciyinin və 17 sənaye rayonunun mövcud olması da bu sahənin inkişafını şərtləndirən başlıca amillərdəndir. 11 xarici ölkənin investorlarının fəaliyyət göstərdiyi və 151 binadan ibarət xarici investorlar şəhərciyi bu mənada mühüm əhəmiyyət daşıyır. Digər bir tərəfdən ərazidəki zəngin mədən yataqları mədən sənayesinin inkişafına səbəb olmuşdur. Haliyədə vilayətdə 628 mədəndən istifadə olunur. Porlit, diyatomit, neflin sinit, kaulin, qızıl və bahalı daşlar mədənləri həm İranda, həm də dünyada bu sahə üzrə sayılıb-seçilən istehsal müəssisələridir.

İqtisadiyyatın inkişafı, ən əsası da ticarət əlaqələrinin genişləndirilməsi burada beynəlxalq tədbirlərin keçirilməsi üçün geniş imkanlar yaratmışdır. 200 hektar əraziyə malik Təbriz Beynəlxalq Sərgi Salonu bu baxımdan xüsusilə qeyd olunmalıdır. Təbriz-Tehran magistralından 5 kilometr aralıda tikilən mərkəzdə hər birinin sahəsi 15 min kvadratmetr olmaqla, 7 örtülü və sahəsi 10 min kvadratmetr olan açıq salon mövcuddur. Burada investorların cəlb olunması, sərmayə imkanlarının araşdırılması və sərmayədarların qarşılaşdıqları problemlərin həlli məqsədilə xidmət mərkəzi də yaradılmışdır.

İranın Şərqi Azərbaycan Vilayətinin nəqliyyat sistemi də müasir tələblər səviyyəsində qurulmuşdur. Hazırda yaşayış məntəqələrini birləşdirən rahat yollar, eləcə də geniş tranzit imkanlarına malik yol şəbəkələri bölgənin inkişafına töhfə verməkdədir. Tehran-Ankara dəmir yolu vilayətin mərkəzi Təbriz şəhərindən keçir. Şərqi Azərbaycan Vilayətində Təbriz Beynəlxalq və Səhənd aeroportları da fəaliyyət göstərir. Gələcəkdə Təbriz-Avropa-Təbriz, Təbriz-Türkiyə birbaşa təyyarə reyslərinin açılması da nəzərdə tutulmuşdur.

İran İslam Respublikası və Azərbaycan Respublikası iki qonşu ölkə olmaqla, yüksək səviyyədə dostluq əlaqələrinə malikdirlər. Son illər münasibətlər ikitərəfli formatda uğurla inkişaf etdirilir. Bu əlaqələrin tərkib hissəsi kimi, Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti arasındakı münasibətlər də məmnunluq doğurur. Ölkələrimiz arasında siyasi və iqtisadi sahədə əlaqələrin uğurla davam etdirilməsi, xüsusilə də ikitərəfli rəsmi səfərlər əlaqələrin gələcək inkişafı üçün geniş perspektivlər açır.

## Təbii sərvətlərin öyrənilməsi, istifadə olunması və perspektivləri ilə bağlı elmi-praktik konfrans



***İyunun 9-da AMEA Naxçıvan Bölməsində "Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri: öyrənilməsi, istifadə olunması və perspektivləri" mövzusunda elmi-praktik konfrans keçirilib.***

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və AMEA Naxçıvan Bölməsinin birgə təşkilatçılığı ilə keçirilən konfransı bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb.

Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri Hafiz Yaqubov təbii sərvətlərin qorunması, öyrənilməsi, istifadəsi istiqamətində görülən işlər barədə məlumat verib.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin müdiri Əli Vəliyev "Naxçıvan Muxtar Respublikasında filiz yataqlarının vəziyyəti və perspektivləri" mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, Naxçıvan diyarı özünün təbii sərvətləri, o cümlədən faydalı qazıntıları ilə çox qədimdən diqqət mərkəzində olub.

Qeyd olunub ki, muxtar respublika ərazisində ilk geoloji tədqiqatların aparılmasına XIX əsrin ortalarından başlanılıb və epizodik xarakter daşıyaraq Qafqazın stratiqrafiyasının bir sıra məsələlərinin araşdırılmasına istiqamətlənib. 1925-ci ildən Naxçıvan Muxtar Respublikasının geologiyasının planlı şəkildə öyrənilməsinə başlanılıb və təbii ehtiyatlarla zəngin olan bu regionun geoloji quruluşu və faydalı qazıntıları haqqında yeni məlumatlar əldə edilib, məlum faydalı qazıntı yataqları yerləşən rayonların ilk geoloji xəritələri tərtib olunub. Sistemli geoloji kəşfiyyat işləri nəticəsində muxtar respublika ərazisində müxtəlif faydalı qazıntı yataqlarının perspektivliyi qiymətləndirilib, eləcə də bir sıra yataqlar kəşf edilərək sənaye işlənilməsinə verilib.

Vurğulanıb ki, muxtar respublika ərazisində tamamilə 1:200000-1:50000 miqyaslı dövlət geoloji planaalma işləri aparılıb, geoloji, faydalı qazıntılar, proqnoz və sair xəritələr dəsti tərtib edilib. Məqsədyönlü şəkildə aparılan geoloji-kəşfiyyat işləri nəticəsində muxtar respublika ərazisində 200-dən çox nadir, nəcib, qara və əlvan metallar, üzlük və bəzək daşları, divar daşı, kərpic və kirəmit gili, seolit, boksit, inşaat qumu, yol tikintisi və beton üçün çınqıl, sement və əhəng xammalı, daşduz, dolomit, gübrə xammalı, şüşə sənayesi xammalı yataqları aşkar edilib. Bu faydalı qazıntı yataqlarının bir çoxunun perspektivliyi qiymətləndirilib, bəzilərinin isə kəşfiyyatı başa çatdırılaraq ehtiyat komissiyasına təhvil verilib. Onların az bir hissəsinin bazasında Naxçıvan Muxtar Respublikasında bir neçə sənaye və tikinti müəssisələri fəaliyyət göstərir.

Məruzəçi bildirib ki, muxtar respublika ərazisində 21 filiz yatağı aşkarlanıb. Aparılmış axtarış-kəşfiyyat işlərinin nəticəsi olaraq 5 filiz yatağı ehtiyatlar balansında qeydə alınıb. Bunlardan Parağaçay molibden, Gümüşlü və Ağdərə polimetal və Darıdağ mərgümüş yataqları sənaye mənimsənilməsinə cəlb olunub, Qapıcıq yatağı ehtiyatda saxlanılıb. Digər 16 yataqda ilkin qiymətləndirmə işləri aparılıb.

AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasov "Təbii sərvətlərdən istifadənin elmi əsası" mövzusunda danışaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası yerüstü sərvətləri ilə yanaşı, yeraltı sərvətləri ilə də zəngindir. Bu zənginlik muxtar respublikada filiz, qeyri-filiz və inşaat materiallarının xalq təsərrüfatının müxtəlif sahələrində tətbiqinə geniş imkanlar açır. Qeyd olunub ki, təbiətin bizə bəxş etdiyi sərvətlərdən, eləcə də yerin təkində olan kəşf olunmamış mineral xammal yataqlarından səmərəli və kompleks istifadə edilməsi mühüm məsələlərdən biridir. İndiyə qədər istismar olunmuş və istismarı başa çatmayan dağ-mədən müəssisələrinin özlərini bərpa etməklə yanaşı, tullantıların təkrar emala qaytarılması imkanlarını araşdırmaq, filizlərin saflaşdırılmasında az tullantıya malik olan texnologiyaların və mümkün qədər zərərsiz kimyəvi reagentlərin istifadəsi təbii sərvətlərin istifadəsində nəzərə alınmalıdır. Unutmayaq ki, təbii sərvətlərimiz heç də tükənməz və bərpa olunan deyildir. Bu sərvətlərdən davamlı və qənaətlə istifadə, onların gələcək nəsillər üçün qorunub saxlanılması hər birimizin qarşısında duran mühüm vəzifədir.

Sonra Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin baş geoloqu Sultan Rzayevin və AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun direktor müavini, kimya elmləri doktoru Bayram Rzayevin çıxışları olub.

Konfransa AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurub.

✍ **Səbuhi HƏSƏNOV**

***"Kənd təsərrüfatı ili"ndə muxtar respublikada aqrar sahənin inkişafı istiqamətində işlər davam etdirilir, torpaqların münbitliyinin artırılması, suvarma suyuna olan tələbatın təmin olunması və əkin sahələrinin genişləndirilməsinə diqqət yetirilir.***

## "Kənd təsərrüfatı ili"ndə meliorasiya və irriqasiya tədbirləri daha da genişləndirilir

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin kollektivi tərəfindən may ayında görülən işlər də bu baxımdan mühüm əhəmiyyət kəsb etmiş, mövsümi suvarma işləri tələbata uyğun təşkil olunmuşdur. Ötən ay rayon Suvarma Sistemləri idarələri tərəfindən torpaqların suvarılmasını yaxşılaşdırmaq məqsədilə 11,6 kilometr kanal, 47 kilometr ara arxları, 4,5 kilometr kollektor lildən təmizlənmiş, 15,6 kilometr yeni suvarma xətti çəkilmiş, 1,25 kilometr suvarma xəttində isə təmir işləri aparılmışdır. Vayxır sol sahil kanalının altından tikintisi davam etdirilən mexaniki suvarma şəbəkəsində 31 kilometr suvarma xətti, 4,8 kilometr drenaj xətti çəkilmişdir. Həmçinin əkilən torpaqları, eləcə də yaşayış məntəqələrini daşqın və sel sularından qorumaq məqsədilə 2,3 kilometr ərazidə, o cümlədən Araz çayında 1,2 kilometr məsafədə sahilbərkitmə işləri aparılmışdır.

Hazırda Şərur rayonunun Babəki, Çəmənli, Ələkli kəndlərində subartezian quyuları qazılır. Püsyan və Tumaslı kəndlərindəki subartezian quyularında təmir-bərpa işləri başa çatdırılmışdır. Arpaçayda yeni subartezian quyusunun istismara verilməsi isə Oğlanqala kəndini içməli su ilə təmin etmiş, kəndə içməli su xətti çəkilmiş və 2 supaylayıcı qoyulmuşdur. Ümumiyyətlə, may ayında muxtar respublikada 63 subartezian quyusu təmir olunmuş, 9 subartezian quyusunda yeni nasos quraşdırılmışdır. Həmçinin bu dövrdə 6 kəhrizdə təmir işləri aparılmışdır.

Muxtar respublikanın melioratorları Naxçıvan şəhərinin və rayonların içməli su təchizatının yaxşılaşdırılması işini də uğurla davam etdirirlər. Ötən ay bu məqsədlə 5,35 kilometr yeni içməli su və 3 kilometr təzyiqli boru xətləri çəkilmiş, 230 metr yeni kaptaj tikilmiş, 4,8 kilometr içməli su xətti və 1,12 kilometr kaptaj xətti təmir olunmuşdur. Naxçıvan şəhərində çirkab sutəmizləyici qurğunun, eləcə də Culfa və Şahbuz rayonlarında sutəmizləyici qurğuların tikintisi də uğurla davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 aprel tarixli “Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin yaradılması haqqında” Sərəncamı ilə Şərur şəhərində Fizika-Riyaziyyat Təmayüllü Lisey yaradılıb.*

## Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə

## *pedaqoji fəaliyyət göstərəcək müəllimlər imtahan veriblər*



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyindən aldığımız məlumata görə, 2015-2016-cı tədris ilindən fəaliyyətə başlayacaq Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə şagird qəbulu üçün nazirlikdə sənəd qəbulu komissiyası yaradılıb. Muxtar respublikanın ümumtəhsil məktəblərindən liseyin VII-X siniflərinə qəbul olunmaq üçün 1060 oğlan şagird sənədlərini təqdim edib. Keçirilən qəbul imtahanlarının nəticələrinə əsasən, 160 şagird liseyin müvafiq siniflərinə qəbul olunub.

Liseyin pedaqoji kadr potensialının təmin etmək də diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə sənəd qəbulu komissiyası 1 may 2015-ci il tarixdən 31 may 2015-ci il tarixədək sənəd qəbulu prosesini həyata keçirib. Müxtəlif ixtisaslar üzrə 71 nəfər müəllimin sənədləri qəbul edilib.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən dünən Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbdə liseydə pedaqoji fəaliyyət göstərmək üçün sənəd təqdim etmiş müəllimlərin test formasında imtahanı keçirilib.

İmtahan test kitabçalarında hər müəllimə 100 sual təqdim edilib. Sualların 80-i ixtisasdan, 10-u informatika fənnindən, 10-u isə məntiq və dünyagörüşdən ibarət olub.

Sualların cavablandırılmasına 2 saat 30 dəqiqə vaxt ayrılıb. Hər bir düzgün cavab 1 (bir) balla qiymətləndirilir. Səhv cavablar düzgün cavabların nəticələrinə təsir etməyəcək.

**Xəbərlər şöbəsi**

## Milli Qurtuluş Günü münasibətilə konsertlər



15 İyun – Milli Qurtuluş Günü münasibətilə muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin kollektivləri konsert proqramları ilə çıxış edirlər. İyunun 8-də Şərur Şəhər Uşaq incəsənət məktəbi şagirdlərinin Sərxanlı Kənd Mərkəzində keçirilən konsertindən əvvəl məktəbin direktoru Sədi İsmayılov çıxış edərək bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf və tərəqqi siyasətinin bəhrələri yurdumuzun hər yerində olduğu kimi, Şərur rayonunda da öz möhtəşəmliyi ilə görünməkdədir. Hələ ötən əsrin 70-ci illərindən başlayaraq Şərurda iqtisadiyyatın inkişaf etdirilməsi, əhalinin güzəranının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb, müstəqillik illərində ulu öndərin uzaqgörən siyasəti nəticəsində bu rayonun da həyatında yeni mərhələ – inkişaf və tərəqqi dövrü başlayıb.

Sonra məktəbin musiqi kollektivlərinin ifasında mahnılar səsləndirilib.

Həmin gün Babək Rayon Uşaq musiqi məktəbi şagirdlərinin Nehrəm kənd mədəniyyət evində, Culfa Şəhər Uşaq musiqi məktəbinin musiqi ansambllarının Yaycı Kənd Mərkəzində, iyunun 9-da isə Naxçıvan Şəhər Qaraçuq Kənd Uşaq musiqi məktəbi şagirdlərinin Şəkərabad Kənd Mərkəzində, Şahbuz Rayon Uşaq musiqi məktəbi şagirdlərinin Badamlı Qəsəbə Mərkəzində, Şərur Rayon Çərçiboğan Kənd Uşaq musiqi məktəbi şagirdlərinin Aşağı Daşarx Kənd Mərkəzində, Naxçıvan Şəhər 1 nömrəli Uşaq musiqi məktəbi şagirdlərinin Qaraçuq kənd mədəniyyət evində rəngarəng repertuarla çıxışları olub.

## Rəsm dərnəyinin üzvləri üçün təcrübi dərs təşkil olunub



İyunun 8-də Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin Bəhruz Kəngərli adına rəsm dərnəyinin üzvlərinə rəssamlıq sənətinə və rəsm çəkmək texnikasına aid təcrübi dərs keçilib.

Mərkəzdə keçilən dərs Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi və muxtar respublikanın Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə reallaşıb.

30-dək dərnək üzvünün iştirak etdiyi təcrübi dərsdə Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əli Səfərov görkəmli Azərbaycan rəssamları barədə ətraflı məlumat verib. Ölkəmizdə realist rəssamlığın əsasını qoyan Bəhruz Kəngərli barədə ətraflı söhbət açan rəssam bildirib ki, Bəhruz Kəngərli təsviri incəsənət tariximizə adı qızıl hərflərlə yazılmağa layiq nadir istedad sahiblərindən biri olub. Görkəmli rəssamdan bizə yadigar qalan “Atabəy məqbərəsi”, “İmamzadə”, “Nuhun qəbri”, “İlanlıdağ”, “Qızlar bulağı”, “Qoca kişi” kimi əsərlər ifadəliliyi, bədii-estetik dəyəri ilə diqqət çəkir. Bəhruz Kəngərli bütün varlığı ilə doğma torpağına bağlı, onun gözəlliklərindən zövq alan və bunu yaradıcılığında öz mükəmməlliyi ilə əks etdirən böyük rəssam olub.

Sonra rənglərin qatılması, rəsm əsərinin quaş boyalarla rənglənməsi əyani olaraq izah edilib. Əli Səfərov uşaqlara nağıl qəhrəmanı göyçək Fatma obrazının təsvirinin çəkilmə qaydasını göstərib. O, uşaqların fantaziyasının inkişaf etdirilməsi üçün nağıllara müraciət etməsinin vacibliyini bildirib.

Sonda dərnək üzvlərini maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

***Artıq muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri növbəti yay tətilinə buraxılıblar. Bütün uşaqlar kimi, sağlamlıq imkanları məhdud uşaqlar da ötən dərs ilində məktəblərə getdi, şagird yoldaşları ilə dərs saatlarında müəllimlərini dinlədi, onlarla bərabər oxudu, potensialı imkan verdiyi qədərilə öyrəndi, ömür-günlərinə yeni çalarlar qatdılar. Hərəkət qabiliyyəti məhdud uşaqlar üçün ilk dəfə olaraq distant (məsafədən) təhsil almaq imkanları yaradıldı. Onlar da müəyyən biliklərə sahib olmaqla yanaşı, sevindilər. Darıxdırıcı keçən günlərini bir-birindən maraqlı anlar əvəz etdi.***

## Dövlət proqramının icrası uğurla davam etdirilir

Bir sözlə, ötən dərs ili muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyasında, onlar üçün məhdud çərçivələrin aşılmasında əlamətdar oldu. Heç şübhəsiz, bütün bunlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nın qarşıya qoyduğu tədbirlərin icrasından qaynaqlanıb.

Dövlət proqramının müvafiq bəndlərinin icrası ilə bağlı aidiyyəti təşkilatlar kimi, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi də qarşıya qoyulan vəzifələri 2015-ci ilin ilk 5 ayı ərzində həyata keçirməyə çalışıb. Belə ki, dövlət proqramına uyğun olaraq, muxtar respublika üzrə sağlamlıq imkanları məhdud 1972 uşaqdan 370 nəfərinin məktəbəqədəryaşlı olduğu müəyyən edilib və onlar haqqında məlumat bazası yaradılıb.

Məlum olub ki, muxtar respublikada fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrində 64 nəfər sağlamlıq imkanları məhdud uşaq təhsil alır. 2015-ci ilin ilk 5 ayı ərzində əqli və fiziki potensialları nəzərə alınaraq 4 nəfər məktəbəqədəryaşlı sağlamlıq imkanları məhdud uşaq muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən uşaq bağçalarına cəlb edilib.

Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində 12 nəfər sağlamlıq imkanları məhdud uşaq qeydiyyatdadır. Cari ilin ötən dövrü ərzində sağlamlıq imkanları məhdud uşaqların təlim-təhsil işlərinin həyata keçirilməsi məqsədilə mərkəzə komitə tərəfindən 3 uşaq yerləşdirilib.

Məktəbəqədər təhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək məqsədilə “İntibahın şəfəqlərilə böyüyürük biz” mövzusunda Naxçıvan şəhərində fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrinin uşaqları arasında müsabiqə keçirilib, 24 nəfər sağlamlıq imkanları məhdud uşaq həmin müsabiqədə iştirak edib. Eləcə də muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri və məktəbdənkənar müəssisələrin dərnək üzvləri olan 59 nəfər sağlamlıq imkanları məhdud uşağın iştirakı ilə rəsm, əl işləri, musiqi müsabiqələri keçirilib, qaliblərə və iştirakçılara diplom və hədiyyələr verilib.

Cari ilin müvafiq dövründə rayon (şəhər) İcra hakimiyyətləri və Naxçıvan Müəllimlər İnstitutu ilə birgə muxtar respublikada fəaliyyət göstərən uşaq bağçalarında təlim-tərbiyə işinə məsul işçilərin peşəkarlıq səviyyəsinin artırılması üçün 25 nəfər müəllim, metodist və tərbiyəçinin iştirakı ilə kurs təşkil edilib. Kursda məktəbəqədər müəssisələrin müvafiq işçilərinin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə məruzələr dinlənilib və tədbir iştirakçılarına mövzuya uyğun əyani vəsaitlər paylanılıb.

Bu ilin müvafiq dövrü ərzində komitə tərəfindən əlaqə saxlanılan sağlamlıq imkanları məhdud uşaqlardan əqli və fiziki imkanları ümumtəhsil müəssisələrində təhsil almağa imkan verən və hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən təhsil ala bilməyən 8 uşağın olduğu müəyyənləşdirilib və onlar haqqında məlumat bazası yaradılıb.

Proqrama uyğun olaraq, ümumtəhsil müəssisələrində tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant mühitin yaradılması məqsədilə muxtar respublikanın tam orta məktəblərində sağlamlıq imkanları məhdud uşaqların, onların valideynlərinin və müəllimlərinin iştirakı ilə tədbir keçirilərək maarifləndirici söhbətlər aparılıb, onları maraqlandıran suallar cavablandırılıb. Bundan əlavə, muxtar respublikanın 14 uşaq müəssisəsində keçirilmiş monitorinq və seminarlarda müəllim, uşaq və valideynlər arasında müvafiq mövzuda söhbətlər aparılıb və 800-dən çox maarifləndirici broşürlər paylanılıb.

Cari ilin ilk 5 ayı ərzində komitə tərəfindən əlaqə saxlanılan sağlamlıq imkanları məhdud uşaqların bacarıq və maraqları nəzərə alınaraq 2-si musiqi məktəblərinə, 2-si müxtəlif idman qruplarına, 8-i məktəbdənkənar müəssisələrin dərnəklərinə, müasir informasiya texnologiyalarından istifadə biliklərinin artırılması məqsədilə 6 uşaq Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində təşkil olunmuş məşğələyə cəlb edilib.

Ümumiyyətlə, proqramın icrası ilə bağlı 2015-ci ilin ilk 5 ayı ərzində komitə tərəfindən 355 sağlamlıq imkanları məhdud uşağın valideynləri ilə əlaqə yaradılaraq maarifləndirici söhbətlər aparılıb, bu uşaqlardan 4 nəfər uşaq bağçalarına, 3 nəfər Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə, 2 nəfər uşaq musiqi məktəblərinə, 2 nəfər idman məktəbinə, 8 nəfər məktəbdənkənar müəssisələrin dərnəklərinə, 6 nəfər Naxçıvan Uşaq Bərpa Mərkəzinə, 6 nəfər Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə və 1 nəfər Naxçıvan Regional Peşə Tədris Mərkəzinə yönləndirilib.

Müvafiq xəstəliyi olan uşaqlar üçün komitə tərəfindən qanvermə aksiyası təşkil olunub, 6 litrə yaxın qan toplanılaraq həmin uşaqlara köçürülmək üçün Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin qan bankına təhvil verilib.

*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bundan sonra da proqramın müvafiq bəndlərinin icrası ilə bağlı üzərinə düşən vəzifələri icra müddətinə uyğun olaraq həyata keçirməyə çalışacaqdır.*

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Basketbol çempionatının 6-cı turunun oyunları başa çatıb

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi basketbol üzrə muxtar respublika çempionatında 6-cı turun oyunları keçirilib.

“Naxçıvan” komandası bu dəfə doğma arenada şərurlu həmkarları ilə qarşılaşıb və meydanı böyükhesablı qələbə ilə tərk edib – 93:22. Turnir cədvəlinin digər lideri “Ordubad” komandası isə səfərdə Sədərək basketbolçularının qonağı olub. Daha üstün olan qonaqlar aktivlərinə 2 xal yazdırmağı bacarıblar – 39:100.

Turnir cədvəlində üçüncü pillədə qərarlaşan “Culfa” komandası da səfər qələbəsi ilə sevinib. Onlar “Lokomotiv” komandasından üstün olublar. “Babək” komandası bu turda “Naxçıvan” Universitetinin basketbolçuları ilə üz-üzə gəlib və meydan amilindən kifayət qədər yaxşı istifadə edib – 59:37.

| S | Komanda | O | Q | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. | Naxçıvan | 6 | 6 | 0 | 489-205 | 12 |
| 2. | Ordubad | 6 | 6 | 0 | 366-200 | 12 |
| 3. | Culfa | 6 | 4 | 2 | 334-276 | 10 |
| 4. | Babək | 6 | 3 | 3 | 264-251 | 9 |
| 5. | Lokomotiv | 6 | 2 | 4 | 227-295 | 8 |
| 6. | Şərur | 6 | 2 | 4 | 172-307 | 8 |
| 7. | “Naxçıvan” Universiteti | 6 | 1 | 5 | 239-377 | 7 |
| 8. | Sədərək | 6 | 0 | 6 | 215-405 | 6 |

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Kəngərli rayonunun Xok kəndində yaşayan İsmayılova Mətanət Müslüm qızının adına olan JN-1066A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Şahbuz rayonunun Qızıl Qışlaq kəndində yaşamış Adıgözəlov Yaşar İsa oğlunun adına olan JN-080A inventar nömrəli, 10505018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Babayeva Reyhanə Əziz qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Babayev Sahib Nadir oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Kərəm Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 446